**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**HƏSƏN HÜSEYN OĞLU FƏDAİ-ŞÜCAİ**

# İRAN İSLAM INQİLABI ƏRƏFƏSİNDƏ İRAN-ABŞ MÜNASİBƏTLƏRİ

**İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI-2013**

İş Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**H.M.Əlibəyli**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**M.N.Quliyev**
siyasi elmlər üzrə fəlsəfə doktoru
**Z.V.Səmədli**

**Aparıcı təşkilat:** **Azərbaycan İqtisad Universitetinin "Beynəlxalq münasibətlər" kafedrası**

Müdafiə «_27___» _12_ 2013-cü ildə saat ____da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçirilcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, M.Lermantov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» ___ _________ 2013-cü ildə göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent** **S.İ.Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Dünya siyasətində hadisələrin zənginliyi və mürəkkəbliyi ilə səcjiyyələnən mərhələlər içərisində XX yüzilliyin sonları öz spesifikliyi ilə seçilir. Bu elə bir dövrdür ki, SSRİ-nin və dünya sosializm sisteminin dağılması nəticəsində müasir beynəlxalq münasibətlərdə sistem dəyişiklikləri baş vermiş, dünya nizamı və beynəlxalq tarazlığın «Yalta-Potsdam qaydası» pozulmuş, dünyanın siyasi xəritəsi əsaslı dəyişikliklərə məruz qalmış, ikinci dünya müharibəsindən sonra yaranmış ikiqütblü dünya nizamının yerində təkqütblü dünya nizamı formalaşmağa başlamışdı ki, bu nizamda İran İslam Respublikası özünəməxsus yer tutur. Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının xarici siyasətində İranın yerinə və əhəmiyyətinə xüsusi diqqət verərək qeyd edirdi ki, "İran ilə Azərbaycan arasında əlaqələrin tarixi böyükdür. Bu, çoxəsirlik tarixdir. Xalqlarımız əsrlər boyu yan-yana, bir yerdə yaşamış, bir kökdən olaraq, eyni ənənələrə malik olaraq bir-birinə həmişə dayaq durmuşlar."[1]

İkinci dünya müharibəsi bəşər tarixində kütləvi insan tələfatı və iqtisadi dağıntılar ilə müşayiət olunan dəhşətli hadisələrdən biri hesab olunur. Bu müharibə həm də dünya siyasətində qüvvələr nisbətində əsaslı dəyişikliklərlə nəticələndi. Müharibənin gedişində və ondan sonra dünya siyasətinin əsas oyunçuları kimi iki fövqəldövlət - Amerika Birləşmiş Ştatları və Sovet İttifaqı bynəlxalq münasibətlərdə aparıcı mövqeyə çıxdılar. Bu dövrdə özünün hərbi qüdrəti və maliyyə imkanları ilə ABŞ Yaxın və Orta Şərqdə nüfuz sahibi kimi regionda baş verən ictimai-siyasi proseslərə təsir etmək imkanlarına malik idi.

XX əsrin ortalarında ABŞ-ın İranla bağlı siyasətində əsas istiqamət kimi bu ölkənin maliyyə resurslarına nəzarət etmək üçün amerikalı mütəxəssis Artur Milsponun Tehrana ezam olunması oldu. İranda öz mövqeyini möhkəmlətmək üçün ABŞ tərəfindən atılan növbəti addım Şah rejiminə kömək etmək üçün general Şvartskovun İrana ezam olunması oldu. İranla ABŞ arasında əməməkdaşlıq istiqamətində atılan bu addımlar bir növ yoxlama məqsədi daşıyırdı.

[1] Heydər Əliyev və Şərq. İran İslam Respublikası. 6 cilddə. IV kitab. Bakı, Çaşıoğlu, 2005, s. 47



ABŞ-ın iştirakı ilə Məhəmməd Rza şahın hakimiyyətinin bərpası iki ölkə arasında münasibətlərdə dönüş nöqtəsi hesab olunur. Məhz bu hadisədən sonra şah rejiminin daxili və xarici siyasətinin əsas istiqamətlərini ABŞ hökuməti ilə hərtərəfli əməkdaşlıq etmək təşkil edib. Bu siyasətin qabarıq nəticələri kimi 1954-cü ilin yanvarında İran neft resurslarını istismar etmək üçün ABŞ-ın beş neft şirkətlərinin, Britiş Petrolium və Şel kampaniyalarının iştirakı ilə Beynəlxalq Neft Konsorsiumunun təşkili, 1955-ci ildə Şah hökumətinin Bağdad Paktına qoşulması, 1959-cu ilin martın 5-də ABŞ hökumətilə «dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilənin» imzalanması, 1964-cü ildə İranda amerikalı mütəxəssislərə toxunulmazlıq hüququnun verilməsi, 1969-cu ildə elan olunmuş Nikson (Quam) doktrinasının şah tərəfindən qəbul olunması və nəhayət, 1972-ci ildə hərbi sahədə ABŞ İran müqaviləsinin bağlanması İranın Fars körfəzi regionunda ABŞ-ın forpostuna çevrilməsilə nəticələndi. Bunlar İranın öz milli iqtisadi resursları üzərində yiyəlik hüququnun itirilməsi, xarici əlaqələrdə isə suveren bir dövlət kimi çıxış edə bilməməsi ilə nəticələndi. İranla Azərbaycan Respublikasının qonşu olduğu səbəbindən problemlər təzahür etdikdə bu ya digər formada Azərbaycanın rəsmi və elmi ictimaiyyətinin diqqətindən yayınmır. Belə hadisələrin obyektiv tədqiqinin Azərbaycan-İran münasibətləri üçün əhəmiyyəti var, bu baxımdan da İran-ABŞ münasibətlərinin dissertasiya çərçivəsində araşdırılması aktuallıq kəsb edir.

**Problemin işlənmə dərəcəsi.** XX əsrin 60-cı illərin əvvəllərində ABŞ-la İran arasında əlaqələrin geniş vüsət alması, bir çox sahələrdə əməkdaşlıq üçün əlverişli şəraitin yaradılması, İranda ekspert kimi fəaliyyət göstərən amerikalıların sayca çoxalması ilə nəticələndi. Qərbpərəstlik siyasətinə qarşı kəskin etirazını bildirən ruhanilər və vətənpərvər ziyalılar rejimin repressiya və təqiblərilə üzləşirdi. Belə bir şəraitdə şah rejimi tərəfindən amerikalılara toxunulmaz hüququnun verilməsini nəzərdə tutan qanun qəbul olundu ki, onunla bağlı məsələlər Hüseyn Ramtinin «Amerikalılar İranda» [1] kitabında geniş təhlil edilir. Müxtəlif əsərlərdə amerikalıların İranda davranışı və yerli adət-ənənələrə guya riayət

[1] رامتين حسين. آمريكايها در ايران. تهران، اميركبير. 1970 (Ramtin Hüseyn. Amerikalılar İranda. Tehran, «Əmir Kənur», 1970)

etmələri müsbət tonda qələmə alınırd[1]. İranda tez bir zamanda yayılan və cəmiyyətin müxtəlif təbəqələrini dərindən düşündürən yazılardan biri də Cəlal Al Əhmədin «Bizim qərbpərəstliyimiz» adlı kiçik həcmli kitabıdır[2].

İranda İslam inqilabının qələbəsindən sonra yazılan əsərlər İranın ABŞ-a qarşı dövlət siyasəti səviyyəsinə qaldırılmış düşmənçilik və mənfi münasibətlərinin ideoloji bazasını təşkil edir. Belə kitablardan biri Ehyabu Zeynəbin «ABŞ ekspertləri İranda: sənədlərin dililə» əsəridir[3]. İranda fəaliyyət göstərən amerikalı mütəxəssislərin ölkənin daxili işlərinə kobudcasına qarışmalarından, İranda işləyərkən varlanmaq hərisliklərindən ətraflı bəhs edən kitablardan biri də Cəmşidi Məhəmməd Hüseyninin «İranın milli azadlıq hərəkatına ABŞ-ın münasibəti»[4] kitabıdır.

İranlı tədqiqatçılar həm də ABŞ-ın Şərq siyasətinə münasibət bildirir və bu istiqamətlə bağlı maraqlı əsərlər qələmə alıblar. Belə tədqiqat işlərinə Cavad Mənsurinin «ABŞ və Orta Şərq» əsərini[5], Əsədulla Xəlilinin «İran-Amerika əlaqələri ABŞ hakim dairələrinin nəzərincə» adlı tədqiqat işini[6] göstərmək olar.

Dehişyar Hüseynin «Xarici siyasət və ABŞ-ın böyük dövlətçilik strategiyası»[7], Həmid İbadinin «İran İslam inqilabının

[1] ریچارد نیکسون. صلح حقیقی. تهران، 1366،صفحه 65. (Riçard Nikson. Həqiqi sülh. Tehran, 1987, 65 s.)

[2] پهلوی محمدرضا.انقلاب سفید . تهران،کتابخانه پهلوی، 1345 صفحه 109. (Pəhləvi Məhəmməd Rza. Ağ inqilab. Tehran, «Pəhləvi kitabxanası», 1976, 109 s.)

[3] احیائی زینب. مستشاران آمریکائی در ایران به روایت اسناد. تهران،" اسناد انقلابی"، سال 1383 صفحه 624 (Ehyai Zeynəb. İranda amerikalı müşavirlər, sənədlərin dililə. Tehran, 1993, 624 s.)

[4] جمشیدی محمدحسینی. رفتارشناسی آمریکا در قبال نهضت ملی ایران. تهران، اسناد انقلاب اسلامی. 1378، صفحه 308 (Cəmşidi Məhəmməd Hüseyni. Amerika və İran milli hərəkatı. Tehran, «İnqilab sənədləri nəşriyyatı», 1979, 308 s.)

[5] دکتر جواد منصوری. آمریکا و خاورمیانه. تهران، 1385، صفحه 281 (D-r Cavad Mənsuri. Amerika və Orta Şərq. Tehran, 2005, 281 s.)

[6] خلیلی اسدالله. روابط ایران و آمریکا، بررسی دیدگاههای نخبگان آمریکائی، تهران، 1381 (Xəlili Əsədulla. İran-Amerika münasibətləri. Tehran, 1991)

[7] دهشیارحسین، سیاست خارجی و استراتژی کلان ایالات متحد آمریکا. تهران، نشر قومس. 1386 صفحه 176 (Dəhşeyar Hüseyn. ABŞ-ın xarici siyasəti və böyük strategiyası. Tehran, «Qomes», 2007, 176 s.)



qələbəsindən sonra İran-ABŞ mübahisələri»[1] kitablarında müəlliflər belə bir nəticəyə gəlirlər ki, ABŞ-ın xarici siyasəti və beynəlxalq əlaqələri, böyük dövlətçilik strategiyası üzərində qurulub və xarici siyasətə belə yanaşma istər-istəməz beynəlxalq hüququn baza prinsipləri və əsas normaları ilə bir araya sığmır.

İranlı tədqiqatçıların diqqətini cəlb edən mühüm mövzulardan biri də İran xalqının neft sənayesinin milliləşdirilməsi ilə bağlı milli-azadlıq hərəkatı problemidir ki, bu milli hərəkata İranın XX əsrdə görkəmli ictimai-siyasi və dövlət xadimlərindən biri sayılan Məhəmməd Müsəddiq rəhbərlik edirdi. İran xalqının bu dövr milli-azadlıq hərəkatı Müvəhhid Məhəmməd Əlinin «Üsyankar neftin harayı: doktor Müsəddiq və İranın milli hərəkatı»[2] adlı kitabında və Əbdül Rza Huşəng Mehdəvinin əsərində araşdırılır[3].

İranla ABŞ arasında münasibətlərin kəskinləşməsi və ciddi qarşıdurma səviyyəsinə keçməsi amerikalı tədqiqatçıların da diqqətindən kənarda qalmayıb. Bu baxımdan Maykel Vilyam Luisin «Amerikanın İranda rüsvayçı məğlubiyyəti»[4] adlı kitabında Vaşinqtonun İran siyasətinin iflasa uğraması ətraflı tədqiq olunub.

İranla ABŞ arasında münasibətləri tədqiq edən xarici müəlliflərdən biri də Aleksandr Hanzdır. Onun «İranla ABŞ arasında əlaqələr tarixi sənədlərdə»[5] adlı tədqiqat işində iki dövlət arasında

[1] عبادی حمید. چالشهای و آمریکا بعداز پیروزی انقلاب اسلامی. تهران، مرکز انقلاب اسلامی، ، 1381صفحه 240 (İbadi Həmid. İslam inqilabından sonra İran-Amerika qarşıdurmaları. Tehran, 2002, 240 s.)

[2] موحد محمدعلی. خطاب آشفته نفت: دکترمصدق و نهضت ملی ایران. تهران، 1375، کارنامه، صفحه547.نشر (Mövəhhed Məhəmməd Əli. Neftin üsyankar təbli: d-r Müsəddiq və İranın milli hərəkatı. Tehran, «Karnamə» nəşriyyatı, 1996, 547 s.)

[3] صداقت کیش جمشید. روابط ایران و آمریکا. تهران، (بدون سال)، صفحه 53. (Sədaqətkiş Cəmşid. İran-Amerika əlaqələri. Tehran, 53 s.); مهدوی عبدالرضا هوشنگ. تاریخ روابط خارجی ایران. تهران، امیرکبیر، 1381، صفحه596 (Mehdəvi Ə. İranın xarici əlaqələr tarixi. Tehran, «Əmir Kəbir» nəşriyyatı, 2002, s.596).

[4] مایکل الدین و ولیام لوییس. هزیمت یا شکست رسوای آمریکا در ایران. تهران، 1356. ناشر، (Maykl Edin i Vilyam Luis. ABŞ-ın İranda rüsvayçı məğlubiyyəti. Tehran «Naşir» nəşriyyatı, 1978).

[5] یوناه الکساندر و آلن نانز. تاریخ مستند روابط دوجانبه ایران و ایالات متحد آمریکا. تهران، نشرقومس. 1378، صفحه786 (Yunah Aleksandr və Alen Hanz. İran-Amerika

bərqərar olan münasibətlərin tarixi imzalanmış müxtəlif sənədlərin dililə araşdırılmışdır.

Tədqiqat aparılarkən sovet tarixçilərinin də İranla bağlı əsərlərindən istifadə olunmuşdur ki, bunlarda İranın ictimai-siyasi həyatının müxtəlif problemləri, Pəhləvilər hökumətinin xarici əlaqələrinin müxtəlif aspektləri araşdırılmışdır[1]. Bu baxımdan maraq doğuran tədqiqatlardan biri E.A.Orlovun «İkinci dünya müharibəsindən sonra İranın xarici siyasəti»[2] adlı kitabıdır ki, müəllif şahın beynəlxalq əlaqələrini İranın milli maraqlarına xidmət etməyən bir siyasət kimi qiymətləndirir.

İranın ictimai-siyasi həyatında neftin oynadığı rol, İran xalqının neftin milliləşdirilməsi uğrunda mübarizəsi, ölkədə bu qiymətli sərvət yolunda gedən anti-imperialist hərəkat və s. problemlər prof. Saleh Əliyevin əsərlərində geniş tədqiq olunmuşdur[3]. İranın qonşu Şərq dövlətləri ilə münasibətləri isə prof. Həsən Əlibəylinin «İran və həmsərhəd Şərq ölkələri. 1946-1978»[4] adlı monoqrafiyasında ətraflı tədqiq olunmuşdur.

Beləliklə, problemlə bağlı mövcud ədəbiyyatdan tənqidi yanaşma və müqayisəli metodların tətbiq olunması yolu ilə XX əsrin

münasibətləri sənədlərin dililə. Tehran, «Qomes» nəşriyyatı, 1999, 786 s.);

[1] Абдуллаев З.З. Начало экспансии США в Иране. М., 1963; Агаев С.Л. Иран: внешняя политика и проблема независимости. 1925-1941гг. М., 1971; Алиев С.М. Нефть и общественно-полтическое развитие Ирана в XX в. М., Наука, 1985; Башкиров А.В. Экспансия английского и американского империализма в Иране. М., Наука 1954; Бочкарев Ю. Военные заговоры Иранской реакции с США. М., 1959; Василев А.М. Персидский залив в эпицентре бури. М., 1983; Военно-блоковая политика империализма. История и современность. М., 1980; Иранская революция. 1978-1979. Причине и уроки. М., 1989; Кассис В.Б. К востоку от Суэца М., 1970 Крменйук В.А. Борьба Вашингтона против революции в Иране. М., Межд. Отношения, 1984

[2] Орлов Е.А. Внешняя политика Ирана после второй мировой войны. М., Наука, 1975

[3] Алиев С.М. Антиимпериалистическое и демократическое движение в 1949-53гг.// Иран: очерки новейшей истории. М., Наука, 1976; Алиев С.М. История Ирана: XX век. М., 2004

[4] Алибейли Г.М. Иран и сопределние страны Востока. 1946-1978. М., Наука, 1976



ikinci yarısında bütövlükdə beynəlxalq münasibətlərdə cərəyan edən ictimai-siyasi və iqtisadi proseslərin dərk olunması məqsədilə istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini islam inqilabı ərəfəsində İranla ABŞ arasında siyasi, iqtisadi və hərbi əlaqələrin xarakteri və səviyyəsi, predmetini isə islam inqilabından sonra iki ölkə arasında diplomatik əlaqələrin qırılması və bunun regionun gələcəyinə təsiri ilə bağlı məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsəd və vəzifələri problemin elmi-siyasi, praktik əhəmiyyəti və aktuallığı nəzərə alınmaqla müəyyən edilmişdir. Müasir dövrdə İran-ABŞ münasibətlərinin kəskinləşməsinin tarixi kökləri və mahiyyətini dərk etmək üçün şahlıq rejimi dövründə iki dövlət arasında təşəkkül tapan münasibətlərin formalaşmasına təsir edən amillərin təhlili əsasında araşdırılması başlıca məqsəd kimi qarşıya qoyulmuşdur.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində həll ediləcək aşağıdakı vəzifələr müəyyən edilib:

- Məhəmməd Rza Pəhləvi dövründə İranın xarici siyasətinin nəzəri əsaslarını araşdırmaq, bu siyasətin konseptual məsələlərini və əsas prinsiplərini tədqiq etmək;
- ABŞ diplomatiyasında İranın yerinin müəyyən olunmasına təsir göstərən əsas amilləri araşdırmaq;
- İranda neft sənayesinin milliləşdirilməsi uğrunda gedən milli-azadlıq hərəkatına ABŞ dövlətinin münasibətini və bu hərəkatın yatırılmasında bu dövlətin xüsusi orqanlarının iştirakını yeni faktlar əsasında tədqiq etmək;
- iki dövlət arasında əməkdaşlığın əsas aspektlərinin normativ-hüquqi bazasını araşdırmaq və bu baxımdan 1959-cu ilin martın 5-də imzalanmış «Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Müqaviləni» ətraflı təhlil etmək və şah hökuməti tərəfindən Nikson (QUAM) doktrinasının qəbul olunmasının səbəb və nəticələrini müəyyən etmək;
- hərbi sahədə İranla ABŞ arasında əməkdaşlığın məqsəd və vəzifələrini müəyyən etmək və tənqidi yanaşma üsulunun tətbiqi ilə təhlil etmək;
- iki ölkə arasnıda münasibətlərin mühüm istiqamətlərindən biri də iqtisadi sahədə əməkdaşlığın yaradılması idi. İkinci dünya

müharibəsindən sonra İranın zəngin təbii sərvətləri ABŞ-ın transmilli kampaniyalarının diqqət mərkəzində olub. Bu istiqamətdə praktik addımlar 1953-cü ildə həyata keçirilən dövlət çevrilişindən sonra atıldı. İslam İnqilabı ərəfəsində çoxsaylı amerikalı mütəxəssislər İranda ekspert adı altında fəaliyyət göstərirdilər. Bu sahədə iki ölkə arasında əlaqələrin hüquqi bazasını və inkişaf dinamikasını tədqiq etmək;

- İranda İslam inqilabının müqəddəm şərtlərinin formalaşmasına təsir göstərən ciddi amillərdən biri də şah hökumətinin ABŞ-ın xarici siyasət orbitinə cəlb olunması idi. Bu prosesin əsas aspektlərini və təyinedici məqamlarını təhlil etmək;

- XX əsrin 70-ci illərinin ikinci yarısından İran-ABŞ münasibətlərində təzahür edən və tədricən qabaran narazılıqların səbəbini müəyyənləşdirmək və təhlil etmək;

- İranda İslam İnqilabının qələbəsindən sonra İran-ABŞ münasibətlərinin kəskinləşməsinin və iki dövlət arasında diplomatik əlaqələrin kəsilməsinin səbəblərini tədqiq etmək.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri və metodoloji əsasını beynəlxalq münasibətlərdə və siyasi elmdə geniş tətbiq olunan ümumi elmi metodlar təşkil edir. Belə ki, müqayisəli və sistemli təhlil metodlarından istifadə etməklə, hərtərəfli və dərin ümumiləşdirmələr aparmaqla obyektiv nəticələr əldə edilmişdir. İranla ABŞ arasında münasibətlərin inkişaf dinamikası dialektik metodların köməyi ilə araşdırılmış, sistemli yanaşma üsulunun tətbiqilə isə iki dövlət arasında əlaqələrə təsir edən amillərin obyektiv təsviri verilmişdir. Dissertasiyanın mənbəşünaslıq bazasını təşkil edən qaynaqlar üzərində işləyərkən induktiv (problematik) metoddan geniş istifadə olunmuşdur. İkitərəfli əlaqələrin təhlilində analiz, sintez, tarixi təsvir və müqayisəli metodların tətbiqinə geniş yer verilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq olunan mövzunun aktuallığı və elmi-siyasi dəyəri onun Azərbaycanda və İranda dissertasiya kimi ilk dəfə kompleks şəkildə tədqiq və araşdırma obyekti kimi seçilməsindən irəli gəlir və bu baxımdan da dissertasiyanın elmi yeniliyini və siyasi-praktik əhəmiyyətini aşağıdakı kimi xülasə etmək olar:

- ilk dəfə olaraq həm Azərbaycanda və həm də İranda şah hökumətinin xarici siyasət prinsipləri elmi əsasda tədqiq olunur, konseptual məsələlər dissertasiya çərçivəsində araşdırılır;



- ABŞ kimi fövqəldövlətin diplomatiyasında İranın mövqeyinin formalaşmasına təsir edən amillər müəyyən olunur və qeyd olunr ki, bu amillər sırasından daha çox diqqəti çəkən İranın zəngin təbii sərvətləri və geosiyasi mövqeyidir;

- İranda neftin kəşfi, istehsalı, nəqli və satışı 1911-1951-ci illər ərzində XX əsrin 50-ci illərin əvvəllərində İranda neft sənayesinin milliləşdirilməsi uğrunda ümummilli hərəkat başlandı. Lakin bu hərəkat ABŞ və İngiltərə tərəfindən İranda dövlət çevrilişi etməklə yatırıldı. Bu antiİran aksiya ABŞ-ın xüsusi orqanlarının birbaşa və fəal iştirakı ilə həyata keçirildi. Tədqiqatda ilk dəfə ABŞ kəşfiyyatının bu hadisələrdə iştirakı yeni faktorla şərh edilir;

- dissertasiya işində ilk dəfə olaraq İranın Nikson (QUAM) doktrinasını qəbul etməsi və şah rejiminin tədricən Fars Körfəzi regionunda Vaşinqtonun dayağına - forpostuna çevriləsi tədqiq olunub;

- Fars körfəzi regionunda jandarm funksiyasını öhdəsinə götürən şah hökumətinin müasir tipli orduya ciddi ehtiyacı vardı. İranla ABŞ arasında hərbi sahədə əməkdaşlığın hüquqi əsası 1972-ci ildə müqavilə imzalamaqla yaradıldı. Bu problem dissertasiya işində ilk dəfə ətraflı tədqiq edilir;

- 1953-cü ilin avqustun 19-da İran neft sənayesini milliləşdirən baş nazir Müsəddiq hakimiyyətdən uzaqlaşdırılandan sonra şah rejimi ABŞ xarici siyasət orbitinə cəlb olundu, 70-ci illərin əvvəllərindən etibarən isə bu dövlət Fars Körfəzi regionunda ABŞ-ın iqtisadi-siyasi maraqlarının təminatçısına çevrildi. Bu problemin əsas elementləri tədqiqat işində ilk dəfə ətraflı şərh edilir;

- 1978-1979-cu illər inqilabının baş verməsinin müxtəlif səbəbləri olmuşdur. Tədqiqat işində daxili səbəblərlə yanaşı, xarici amillərin də bu hadisələrdə həlledici rol oynaması şərh edilir və qeyd edilir ki, bu amillərdən ən başlıcası ABŞ-ın İrana qarşı genişmiqyaslı iqtisadi, siyasi və ideoloji ekspansiya siyasəti olmuşdur;

- XX əsrin 70-ci illərin ortalarından ABŞ-İran münasibətlərində böhranlı vəziyyət təzahür etmiş və İranda sosial ədalət uğrunda başlanan bu hərəkat tədricən antiŞah və antiİmperialist mahiyyət kəsb etmişdir;

- Tədqiqat işində göstərilir ki, iki dövlət arasında təzahür edən böhranlı vəziyyət diplomatik əlaqələrin kəsilməsi ilə nəticələnmişdir. Əlaqələrin bu həddə çatmasının əsas səbəbi şah rejiminin antimilli

siyasəti və ABŞ dövlətinin bu ölkə ilə bağlı həyata keçirdiyi yeni müstəmləkəçilik siyasəti olmuşdur.

**Dissertasiyanın nəzəri-praktiki əhəmiyyəti.** Tədqiqatda istifadə olunmuş faktik materiallardan, əldə olunmuş elmi nəticələr və ümumiləşdirmələrdən ABŞ-ın Yaxın və Orta Şərqlə bağlı siyasətinə dair tədqiqat işlərinin hazırlanmasında, ali məktəblərdə xüsusi kursların tədrisi prosesində, dərslik və dərs vəsaitlərinin qələmə alınmasında, xarici siyasət və iqtisadi əlaqələrlə məşğul olan dövlət orqanlarının praktik fəaliyyə-tində istifadə oluna bilər. Bundan başqa, XX əsrin ikinci yarısında Fars körfəzi regionunda beynəlxalq münasibətlər tarixinə dair ümumiləşdirilmiş tədqiqatların yazılmasından da bəhrələnmək olar.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasında yerinə yetirilmiş, müzakirə edilərək müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyanın ayrı-ayrı aspektləri haqqında Təbriz Universitetində təşkil olunmuş elmi konfrans və simpoziumlarda, və Tehranda İran XİN-nin Strateji Araşdırmalar Mərkəzində məruzələr edilmişdir. Tədqiqat işinin əsas məzmunu Bakıda və İranda nəşr olunan 5 elmi jurnallarda çap olunmuş məqalələrdə öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu.** Tədqiqat işi giriş, üç fəsil, səkkiz paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat və mənbələrin siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiq edilən mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tarixşünaslığı və mənbəşünaslıq məsələləri təhlil edilir, metodoloji məsələlərə aydınlıq gətirilir, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın **I fəsli «İkinci dünya müharibəsindən sonra İran-ABŞ əlaqələrinin inkişafina təsir edən əsas amillər»** adlanır. Fəslin **«Məhəmməd Rza Pəhləvinin dövründə İranın xarici siyasət prinsipləri»** adlanan **1-ci paraqrafında** XX əsrin 50-60-cı illərində İranın xarici siyasətinin inkişafına beynəlxalq səviyyədə təsir göstərən amillərin səciyyəsi verilirdi. Kubada Sovet raket sisteminin yerləşdirilməsilə bağlı Şərqlə Qərb arasında böhranın başlanması. Bu böhran iki fövqəldövlət arasında nüvə müharibəsilə nəticələnə bilərdi; Vyetnam müharibəsində ABŞ-ın çətin vəziyyətə düşməsi nəticəsində bu dövlətin diqqəti Fars körfəzindən Cənubi-Şərqi Asiya regionuna cəlb olmuşdu; Üçüncü dünya ölkələri arasında Sovet İttifaqının siyasi və hərbi nüfuzunun artması; Ərəb dünyasında, xüsusilə Misirdə, Əlcəzairdə və İraqda radikalizmə meylin artması; Böyük Britaniyanın ordu hissələrinin Suveyş Kanalından Şərqə – Fars körfəzindən çıxarılması haqqında qərarın qəbul olunması; Nikson (QUAM) doktrinasının və Kisincerin regional strategiyasının elan olunması və bu sənədlərə əsasən İrana Orta Şərqdə jandarm rolunun tapşırılması. Əlavə edək ki, bu problemi müzakirə etmək üçün H.Kissincer dəfələrlə Tehrana səfər etmişdi.

Soyuq müharibənin tüğyan etdiyi illərdə Məhəmməd Rza rejimi Qərbin strateji müttəfiqi kimi çıxış edirdi və onun əsas vəzifəsi, Sovet İttifaqının cənub sərhəddi boyu kommunizmin cənuba doğan irəliləməsi qarşısında sipər rolunu oynamaq idi. Belə vəzifənin hüquqi bazasını ABŞ-la imzalanmış müxtəlif sənədlər təşkil edirdi. Hakimiyyətinin son 15 ilində ABŞ-ın strateji müttəfiqi rolunu yüksək səviyyədə ifa edən şah, nəinki Orta Şərq regionunda və həm də bu regiondan kənarlarda da Vaşinqtonun sadiq forpostu və strateji müttəfiqi kimi çıxış edirdi. Nəticədə şah rejimi tədricən ABŞ-dan asılı vəziyyətə düşür və bu asılılığın siyasi və ictimai fəsadları bais olmuşdu. ABŞ-ın əlaltısına çevrilən şah rejimi bu dövlətin Orta Şərqdə ikili standartlı siyasətinin icraçısı və dünyanın mühüm enerji regionu sayılan Fars körfəzində jandarm rolunu «peşəkarcasına» yerinə yetirirdi. Xarici siyasətdə təzahür edən bu qərbpərəstlik və xüsusilə amerikapərəstlik şahın özü tərəfindən elan olunmuş «Milli müstəqil siyasətlə» ziddiyyət təşkil edirdi.

60-cı illərin sonu və 70-ci illərin əvvəllərində şah rejiminin xarici siyasətində təzahür edən istiqamətlərdən biri də müharibələr və münaqişələr səhnəsinə çevril-miş bəzi ölkələrə, heç şübhəsiz, Qərbin razılığı ilə silah və hərbi sürsat satmaq idi. Belə ki, Kəşmir və digər ərazi problemləri üstə Hindistanla Pakistan arasında başlanan müharibədə, Pakistana hərtərəfli yardım edildi. Bu dövlət Cənubi Vyetnama, İordaniyaya, Mərakeş və Şimali Yəmənə və Somaliya silah və hərbi texnika göndərdi.

1973-cü ildə OPEK xəttilə neft sənayesi milliləşdirildi və

nəticədə bu təşkilatın üzvü olan ölkələrin neftdən hasil olan gəliri külli miqdarda artdı. Bu təşkilatın üzvü kimi bu proses İrandan da yan keçmədi; bu dövlətin neft satışı yolu ilə əldə etdiyi xalis gəlir 18 mlrd. dollara çatdı. Uzun illər boyu bu gəlirin real sahibi Beynəlxalq Neft Konsersiyomun üzvi olan transmilli əcnəbi neft kampaniyaları idi. Bu kampaniyalar bu böyüklükdə gəlirin itirilməsilə heç vəchlə razılaşmaq istəmirdilər və başqa kanallarla İranın payına düşən neft dollarının bir hissəsini yenə də ələ keçirmək planları hazırlanmışdı. Bu tədbirlərdən biri də İranın forposta çevrilməsi, şahlıq rejiminin keşiyində durmaq üçün müasir silahlarla və hərbi texnika ilə təchiz olunmuş müasir milli ordu hazırlamaqdan ibarət idi

Fəslin **«ABŞ-ın xarici siyasətində İranın yerini müəyyən edən amillər»** adlanan **2-ci paraqrafı** problemə iki baxımdan yanaşma əsasında araşdırılmışdır: biribcisi, İran ABŞ-ın həyati maraqlar zonası kimi; ikincisi, İranın ABŞ-ın region siyasətində geosiyasi əhəmiyyəti baxımından.

İkinci Dünya müharibəsindən sonra ABŞ-ın beynəlxalq əlaqələrinin mühüm prinsiplərindən biri də bu ölkə üçün həyati əhəmiyyəti olan regionlarda öz mövqeyini möhkəmlətmək olub. Soyuq müharibə illərində dünyanın müxtəlif regionları ABŞ üçün «həyati əhəmiyyəti olan məkan» elan edilmişdi. Bu regionların seçilməsində əsas götürülən şərt, həmin regionların hərbi-strateji əhəmiyyəti və zəngin təbii sərvətlərə malik olmaları idi. Belə zonalardan biri də Fars Körfəzi regionu idi.

Soyuq müharibə illərində Yaxın və Orta Şərqdə mövqe möhkəmlətmək uğrunda iki fövqəldövlət arasında açıq və qapalı mübarizə heç zaman səngimirdi. Heç zaman səngimək bilməyən belə qarşıdurmada qeyd olunan regionda yaşayan xalqların həyat tərzi və psixologiyasına yaxşı bələd olan ingilislər üstünlük təşkil edirdilər.

İkinci Dünya müharibəsindən sonra bu regionda möhkəmlənmək uğrunda gedən mübarizə müstəvisində yeni bir rəqib - ABŞ göründü. ABŞ özünün bu regionla bağlı siyasətində uğur qazanmaq üçün Şərqdə oyun oynamağın incəliklərinə yaxşı bələd olan İngilislərin məsləhət və yardımına söykənirdilər. Vaşinqton İranla bağlı siyasətində də belə incə ingilis oyunlarından istifadə etməli idi. Beləliklə, ABŞ diplomatiyası İran uğrunda mübarizə meydanından əvvəl Sovet İttifaqını və hətta lazım gələrsə İngiltərə kimi rəqibini sıxışdırmalı idi. Bu problemin həllində əsas vasitə kimi neft dollardan



və İranın ictimai-siyasi dairələrində Amerikaya üçüncü qüvvə kimi ünsürlərdən istifadə olunmalı idi.

Böyük dövlətlərin diplomatiyasında İranın geosiyasi əhəmiyyəti əsasən aşağıdakı amillərlə ölçülür. Bu ölkə beynəlxalq əhəmiyyətli yollar qovşağında yerləşir. Dünyanın bir çox regionlarını birləşdirən hava yolları İranın səmasından keçir. Bu yollarla həm sərnişin daşıyan təyyarələr və həm də hərbi məqsədlər üçün istifadə olunan təyyarələr hərəkət edirlər. Avropanı Asiya ilə birləşdirən transmagistral quru yollar İran ərazisindən keçir. Təsadüfi de-yil ki, vaxtilə Çini İtaliya ilə birləşdirən Qədim İpək yolu həm də İran ərazisindən keçib. Bu ərazi bir çox ölkələrin xarici ticarət əlaqələrində tranzit yolu kimi istfadə olunur və bu da İran üçün gəlir gətirən mənbələrdən biri kimi əhəmiyyət kəsb edirdi. İranla dostluq münasibətləri olan bəzi ölkələr Fars Körfəzinin İrana məxsus sahillərində idxalat və ixracat mallarının yüklənib-boşaldılması üçün müqavilə əsa-sında sərbəst zona kimi istifadə ediblər. Adətən bu istiqamətdə görülən işlər qarşılıqlı faydalanmaq prinsipi üzərində qurulur.

İranın mühüm strateji əhəmiyyəti olan sahələrindən biri də bu ölkənin iki dəniz - Xəzərlə Fars körfəzi arasında yerləşməsidir. Şimaldan Cənuba və əks istiqamətdə iki dəniz yollarından istifadə edərək daşınan mallar, İran ərazisindən keçərək adı çəkilən dənizlərin sahillərinə çatdırılır. Bu mallar həm avtomobil nəqliyyatı vasitə-silə və həm də dəmir yolu xəttilə adı çəkilən dənizlərin sahillərinə nəql olunur.

İranın strateji əhəmiyyəti həm də bu ölkənin açıq dənizlərə sərbəst çıxışı ilə ölçülür. Birbaşa açıq dənizlərə çıxışın olması neftin xarici bazarlara çatdırılması üçün həlledici əhəmiyyəti var. İran neftinin Avropaya və Uzaq Şərqə daşınması üçün beynəlxalq dəniz yollarına çıxışa malik olması, bu ölkənin xarici ticarət əlaqələrinin genişləndirilməsi və inkişafı üçün əlverişli şərait yaradır. Təsadüfi deyil ki, bu ölkənin ilk neft emal zavodları Fars körfəzinin sahilləri boyu, ya da bu sahillərə çox yaxın ərazilərdə inşa edilmişdir. Ən modern neft doldurma məntəqələri də məhz Fars Körfəzi boyu yerlərdə inşa edilib. İranın ən modern, müasir standart-lara cavab verən neftdoldurma stansiyası Fars Körfəzində, Xark adasında tikilib. Avropadan və Uzaq Şərqdən gələn iri ton najlı neft daşıyan tankerlər, Xarkda yük götürərək açıq dənizə çıxırlar.

Fəslin **«İranın karbohidrogen ehtiyatları və ABŞ»** adlanan **3-cü paraqrafı** bilavasitə enerji resurslarının dünya siyasətində rolunun və əhəmiyyətinin açılmasına həsr olunmuşdur. Hələ 1941-ci ilin əvvəllərində Ekspertlər Komitəsinin ABŞ Prezidenti üçün hazırladığı hesabatda qeyd edilirdi ki, dünyada istehsal edilən neftin mərkəzi tədricən Fars körfəzinə tərəf dəyişilməkdədir. O dövrdə ABŞ Dövlət katibi işləyən Farstal xatirələrində yazıb: «Mən dedim ABŞ üçün Orta Şərqin nefti nəinki müharibə vaxtı lazımdır və həm də sülh dövründə ona böyük ehtiyac hiss olunur. Otuzuncu illərin əvvəllərindən etibarən neft Amerikanın İranla əlaqədar siyasətində strateji faktor kimi çıxış etmişdir. İranın da daxil olduğu Fars Körfəzi regionun zəngin təbii sərvətləri və strateji əhəmiyyəti tədricən buranı ABŞ-ın diqqət mərkəzinə çevirdi».

Fars Körfəzi özünün geosiyasi əhəmiyyətindən başqa zəngin neft və qaz strukturlarına malik olmasıdır. Qeyd etmək lazımdır ki, dünyada aşkar edilmiş neft ehtiyatlarının ikidə üç hissəsi və aşkar edilmiş qaz yataqlarının 32% burada yerləşir. Enerji mənbələrinin həcminə görə Fars körfəzi dünyanın heç bir regionu ilə müqayisə oluna bilməz.

Dissertasiyanın **II fəsli «İranın ABŞ-ın forpostuna çevrilməsi»** adlanır. Fəslin **«İran və Nikson (QUAM) doktrinası» adlanan 1-ci paraqrafında** ABŞ-ın xarici siyasətində əsaslı dəyişiklikləri əks etdirən və prezident R.Nikson tərəfindən 1969-cu il iyulun 26-da elan olunan doktrinanın mahiyyəti və dövlətlərin buna münasibəti araşdırılır. Sənəddə dövlətin xarici siyasətinin bir çox problemlərinin həllinə yeni yanaşma elan olunmuşdu. Prezident bəyan etdi ki, ayrı-ayrı regionlarda fəal siyasət yeritmək üçün hərbi xərclərinin artırılması tələb olunur. Bu məqsədlə həyata keçirilən siyasətdə ABŞ dünyanın müxtəlif regionlarda birbaşa deyil, özünün inanılmış müttəfiqləri vasitəsilə çıxış edəcəkdir. R.Niksona görə, Forpost adı altında seçilən bu müttəfiqlər, Vaşinqton tərəfindən öhdələrinə qoyulan vəzifələri yerinə yetirmək üçün müasir standartlara uyğun sürsat və hərbi texnika ilə təchiz olunmuş və təlim görmüş orduya malik olmalıdır. Forpostlar özünün hərbi qüdrətindən, maliyyə imkanları və region çərçivəsində nüfuzundan istifadə etməklə ABŞ-ın həmin regionda iqtisadi, strateji və siyasi maraqlarının keşiyində durmalı idi. Beləliklə, bu müttəfiqlərin ordusunun təşkilatı məsələləri, təchizatı və kadr hazırlığı problemləri



ABŞ hökuməti öz öhdəsinə götürürdü. Bu rejimlər sırasında aşağıdakı ölkələr: Cənubi Koreya, Cənubi Vyetnam, Filippin və İran birinci olaraq silahlandırılmalı, onların ABŞ-la yeni münasibətlərinin əsaslı hüquqi bazası yaradılmalı idi. Həmin doktrinaya qoşulan İran tezliklə o dövr üçün müasir sayılan güclü ordu yaratdı.

Fəslin **2-ci paraqrafı «Hərbi sahədə İran-Amerika əməkdaşlığı»** adlanır. Regionda ABÇ-ın möhkəmlənmək istəyi İranın hegemonluq istəyi ilə üst-üstə düşürdü. Lakin hərbi texnika və sürsatın alınması büdcədə hərbi xərclərə ayrılan vəsaitin artırılmasını tələb edirdi. Məs., əgər 1960-1961-ci maliyyə ilində İranın hərbi xərcləri 14,2 milyard riyal idisə, 1966-1967-ci ildə bu sahəyə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti 23,9 milyard riyala çatdı, lakin silah satışına ayrılmış maliyyə vəsaitin miqdarı şahı qane etmirdi. Onun fikrincə, regionda hegemon bir qüvvə kimi çıxış etməyin əsas şərtlərdən biri qüdrətli ordu yaradılması idi ki, buna ABŞ-ın hərbi-maliyə yardımı ilə nail olmaq olardı. 1966-cı ilin qışında ABŞ vitse-prezidenti Hemfri Tehrana rəsmi görüşə gəldi və «Fars körfəzində qüdrətli olmaq üçün İrana kömək etmək lazım» olduğunu bildirdi. 1967-ci ilin əvvəllərində Vaşinqton İrana «F-4» qırıcı təyyarələrinin satılması haqqında razılıq verdi. Bu təyyarələri almaq üçün İrana 250 milyon dollar məbləğində kredit ayrıldı. Bu razılığı reallaşdırmaq üçün danışıqlar uğurla başa çatdı, İran ordusuna Amerika istehsalı olan aşağıdakı sürsatın təhvil verimləsi haqqında müqavilə imzalandı: 768 ədəd hava-hava raketi, 40 ədəd helikopter, 2 ədəd 1100 ton tutmunda hərbi gəmi, topla təchiz olunmuş 3 ədəd hərbi qayıq və s. Həmin hərbi texnika qısa bir vaxtda İran ordusuna təhvil verildi.

1969-cu ilin noyabrında Baş Nazir Huveyda «İran ordusunu möhkəmlətmək məqsədilə» 400 milyon məbləğində hərbi texnika və sürsatın satın alınması üçün parlamentə layihə təqdim etdi. Layihədə bu məbləğin bir neçə yerdən kredit almaq yolu ilə əldə olunması öz əksini tapməşdı. Şahin yeritdiyi hərbi kurs nəticəsində İran ordusunun müdafiyə qabiliyyəti xeyli gücləndi.

Fəslin **3-cü paraqrafı «İki ölkə arasında iqtisadi əlaqələrin inkişaf dinamikası»** adlanır. ABŞ-la İran arasında münasibətlərdə canlanma II dünya müharibəsindən sonraki illərə təsadüf edir. İranla ABŞ arasında iqtisadi-ticarət əlaqələrini genişləndirmək məqsədilə iki ölkənin rəsmiləri arasında vaxtaşırı görüş və

müzakirələr keçirilirilməsinə başlandı. Belə müzakirələrdə iki ölkə arasında ticarət əlaqələri və İranda sərmayə qoyuluşu ilə bağlı məsələlər müzakirə olunur, ticarətə və kapital qoyuluşuna əngəl olan problemlər aradan qaldırılırdı. Bu məsələlərin ətraflı müzakirəsi 1971-ci ilin avqustun 3-də Los-Ançelosda hər iki ölkənin Ticarət Palatalarının iştirakı ilə aparıldı və nəticədə ABŞ-ın dəstəyi ilə 1971-ci ildə Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı İran iqtisadiyyatına 96 mln. dollar məbləğində kapital qoymaq haqqında qərar qəbul etdi. Bu məbləğdən İranda sənayeləşmədə və kənd təsərrüfatı sahəsində istifadə olunmalı idi.

Bu dövrdən başlayaraq İrana kapital qoyuluşu sahəsində ABŞ-ın praktik addımlarının atılması genişləndirildi. 70-ci illərin əvvəllərində Amerikanın İdxalat və İxracat Bankı tərəfindən İranda rabitə sahəsini genişləndirmək üçün 29,2 mln. dollar məbləğində vəsait ayırdı. Həmin bank tərəfindən 1,85 mln. dollar məbləğində Tehranda «İnterkontinental» hotelinin tikintisinə və 30,7 mln. dol., Şəhriyar şəhərində inşa edilmiş 156 megavat gücündə 2 elektrik stansiyalarının genişləndirilməsinə ayrıldı. İranda kapital qoyuluşu sahəsində ABŞ-ın müxtəlif şirkət və bankları fəal iştirak edirdilər. ABŞ-la İran arasında texniki əməkdaşlığın mühüm sahələrindən biri də nüvə texnologiyası ilə bağlı idi. Bu sənaye sahəsinin İranda yaradılmasının təşəbbüskarı məhz ABŞ olmuşdu və bu sahəyə aid texnologiya İrana Amerika tərəfindən satılırdı.

Dissertasiyanın **III fəsli "Amerika və İran islam inqilabı"** adlanır. Fəslin "**İran-Amerika qarşıdurmasının kökləri**" adlanan **1-ci paraqrafında** bunun səbəblərini və mahiyyəti araşdırılır. Bu əlaqələr heç də möhkəm özül üzərində qurulmamış, hamar və maneəsiz yolla getməmiş, enişli-yoxuşlu olmaqla müxtəlif maneələrlə üzləşmişdi. İkinci Dünya müharibəsinə qədər İran-Amerika münasibətləri yalnız mədəni münasibətlər, dini əlaqələr və məhdud formada iqtisadi-ticarət çərçivəsində inkişaf etmişdi. İran da Amerika ilə münasibətlərin genişləndirilməsinə bir o qədər meyl göstərməmiş, əsasən Avropa ölkələri və Rusiya ilə münasibətlərin qurulması və inkişafı diqqət mərkəzində saxlanılmışdır.

İkinci dünya müharibəsinin illərində İran özünün geosiyasi və iqtisadi əhəmiyyətilə ABŞ-ın diqqətini cəlb etdi. Bu dövrdə sovet və ingilis orduları tərəfindən işğal olunan İran, müttəfiq kimi söykənmək üçün üçüncü qüvvə axtarmaqda idi. İran hakim



dairələrinin fikrincə, belə bir qüvvə yalnız ABŞ ola bilərdi.

1953-cü ilin avqustunda ABŞ-ın xüsusi orqanlarının iştirakı ilə Müsəddiq hökumətinin devrilməsi İran-Amerika münasibətləri tarixində dönüş nöqtəsi oldu. 1953-cü ildən 1978-ci ilin sonuna qədər İran-Amerika münasibətlərin hərtərəfli təhlili və araşdırılması belə bir qənaətə gəlməyə əsas verir ki, həmin zaman kəsiyində bu ölkədə şahın simasında oyuncaq bir hökumət hakimiyyətdə olub. İran tarixçisi H.Məbadi bu illəri iki mərhələyə bölərək qeyd edir ki, 50-60-cı illərdə şah rejimi Amerikanın əlində oyuncağa çevrilib, 70-ci illərin əvvəlindən isə «ABŞ-ın əlində hərbi-siyasi alət olmuşdur».

XX əsrin 70-ci illərinin sonu üçün İranda şahlıq rejiminə qarşı kütləvi çıxışlar, daxili sabitliyin pozulması və ruhanilərin hərəkata rəhbərliyi nəticəsində ABŞ-ın şahı dəstəkləməsi planı baş tutmadı. ABŞ-ın müxtəlif xidmət orqanlarının antiiran fəaliyyəti isə onun İrandakı səfirliyinin girov götürülməsinə səbəb oldu.

Fəslin "**İki dövlət arasında diplomatik əlaqələrin kəsilməsi**" adlanan **2-ci paraqrafında** İranda milli-azadlıq hərəkatı öz inkişafının ən yüksək zirvəsinə çatandan sonra ABŞ-ın bu ölkə ilə siyasətinin əsasını şahı «qurban verməklə» özünün iqtisadi və siyasi maraqlarını qoruması sahəsində yeritdiyi siyasi xətt təhlil olunur. Bu məqsədə çatmağın ən optimal yollarından biri də inqilabi hərəkata rəhbərlik edən Ayətulla Xomeynilə «dil taparaq, ona yaxınlaşmaqla öz istəyinə nail olmaq, ruhanilərin köməkliyi və iştirakı ilə Sovet İttifaqının Fars Körfəzinə doğru irəliləməsi qarşısında sədd yaratmaq idi. Lakin şahın ABŞ-a gəlişinə icazə verilməsi, onun İrana ekstraditsiya olunmasına imkan verilməməsi, səfirliyin işğalı və diplomatların girov götürülməsi kimi gərgin və dramatik hadisələrin baş verməsi iki dövlət arasında diplomatik əlaqələrin kəsilməsilə nəticələndi.

Hadisələrin belə inkişafı ona gətirib çıxardı ki, müxtəlif üsullarla İranın mövqeyində dəyişikliklərə nail ola bilməyən ABŞ açıq müdaxilə yolu seçdi, İrana qarşı beynəlxalq sanksiyalar və ittihamlar irəli sürülməyə başladı ki, bütün bunların nəticəsində regionda beynəlxalq vəziyyət olduqca gərginləşdi.

**Nəticədə** tədqiq edilən problemlə bağlı ümumiləşdirmələr aparılmış, regionda nüfuz dairələri uğrunda gedən mübarizənin perspektivlərinə toxunulmuş, ABŞ-İran qarşıdurmasının regionun təhlükəsizliyinə yaratdığı təhdidlərin səciyyəsi verilmiş, həllini

gözləyən problemlərlə bağlı ümumiləşdirmələr aparılmış, konkret təklif və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyanın məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:**


1. ABŞ-ın İrana qarşı iqtisadi sanksiyaları //Тарих və onun problemləri. Nəzəri elmi metodik jurnal. B., 2010, №2
2. İranla - ABŞ arasındakı yaranan konfliktin kökləri // Tarix və onun problemləri. Nəzəri elmi metodik jurnal. Bakı 2010, №3
3. İran və ABŞ arasında siyasi-diplomatik əlaqələrin tarixi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Bakı Slavyan Universiteti) B., 2009, №4
4. İranla-ABŞ əlaqələrində Fars körfəzi neftinin rolu // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Bakı Slavyan Universiteti) B., 2009, №5
5. Факторы, определяющие место Ирана во внешней политике США // Мультиверсум. Философський альманах. Выпуск 5(103), 2011
6. Fars körfəzi neftinin ABŞ-nin Yaxın Şərq siyasətindəki rolu// Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin 20 illiyinə həsr edilmiş "Qloballaşan cəmiyyətdə beynəlxalq münasibətlər və iqtisadiyyat elminin aktual problemləri"mövzusunda kecirilmiş elmi-praktik konfransın materialları. B., 2012
7. İranın nüvə proqramının tarixi // Heydər Əliyev -90-Umummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar elmi - praktik konfransın materialları, 26 aprel 2013-cü il. B., 2013




**Гасан Гусейн оглы Фадаи-Шуджаи**

**Резюме**


Диссертационная работа посвящена анализу одной из актуальных проблем современных международных отношений - политико-дипломатической борьбы накануне Иранской Исламской революции между Ираном и США. Для Ирана, поставившего цель противостоят к интересам США и Европы в регионе, изучение этой проблемы важно с научно-теоретической и практической точки зрения.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во Введении обосновывается актуальность проблемы, степень ее изученности в иранской и зарубежной политологической науке, определяются цель и задачи исследования, определяется теоретическая и методологическая базы исследования, его источники, раскрывается научная новизна и теоретико-практическая значимость работы.

Первая глава называется «Факторы, влияющие на развитие связей между Ираном и США после второй мировой войны» и состоит из двух параграфов. В данной главе рассматриваются внешнеполитические принципы Ирана при шахе Мухаммед Рза Пехлеви, факторы, определяюшие место Ирана во внешней политике США, а также значение энергетических ресурсов Ирана в мировой политике.

Вторая глава называется «Превращение Ирана в форпост США» и рассматривает проблему в трех параграфах. Здесь анализируются приоритеты внешней политики Ирана, присоединение ее к Гуамской доктрине президента США Р.Никсона, обосновывается важность американо-иранского сотрудничества в военной области и расширение сотрудничества между двумя странами в экономических областях.

Третья глава называется «Америка и Иранской исламской революции» и состоит из двух параграфов. В этой главе рассматриваются корни противостояния между Ираном и США, факторы, влияюшие на противостояния и разрыв дипломатических отношений между двумя странами.

В Заключении подводится итог проведенного в диссертационной работе исследования, на основе обобщении даются прогнозы по перспективам развития отношений между Ираном и США.

Hasan Huseyn Fada - Shudzhai


## SUMMARY

The thesis is devoted to the analysis of one of the urgent problems of modern international relations - political and diplomatic struggle on the eve of the Iranian Islamic Revolution of Iran and the United States . Iran has set a goal opposed to the interests of the U.S. and Europe in the region, it is important to study this problem with the scientific-theoretical and practical point of view .

The thesis consists of introduction, three chapters ( the first and second chapter consists of three , and the third - two paragraphs), conclusions and bibliography.

In the introduction the urgency of the problem, the degree of scrutiny in the Iranian and foreign political science , defined the goal and objectives of the study , explains the methodology and examples of database sources revealed scientific novelty and practical value of the work .

The first chapter is entitled " Factors influencing the development of ties between Iran and the United States after World War II " and consists of two sections. The chapter describes the principles of the foreign policy of Iran under Shah Mohammad Reza Pahlavi , the reasons behind Iran's place in the outer poly - tick the U.S. , as well as the value of energy resources of Iran in world politics.

The second chapter is titled " Iran Prevrashenie outpost in the U.S." and considers the problem in three sections. Chapter discloses the priorities of the foreign policy of Iran , its annexation of the Guam doctrine of U.S. President Richard Nixon , the importance of US- Iranian military cooperation and cooperation between the two countries economic areas .

The third chapter is called "America and the Iranian Islamic Revolution " and consists of two sections. The chapter examines the roots of confrontation between Iran and the United States , factors vliyayushie on confrontation and the severance of diplomatic relations between the two countries .

The Conclusions summarizes conducted in the thesis research , conducted generalization are forecasts about the prospects problems and areas for development.




**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**ГАСАН ГУСЕЙН оглы ФАДАИ-ШУДЖАИ**

# ОТНОШЕНИЯ МЕЖДУ ИРАНОМ И США НАКАНУНЕ ИРАНСКОЙ ИСЛАМСКОЙ РЕВОЛЮЦИИ

**Специальность: 5901.01 – «Международные отношения»**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**БАКУ - 2013**